AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI

**Avtomatik identifikasiya**

# ŞTRİXLİ KODLAŞDIRMA

**Terminlər və təriflər**

AZS 214 - 2006

(ГОСТ Р 51294.3-99)

Rəsmi nəşr

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi

B A K I - 2006

## MÜQƏDDİMƏ

1. «QS1 Azərbaycan» MMC tərəfindən İŞLƏNİLİB və TƏQDİM EDİLİB.

2. Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin «05» 04 2006-ci il tarixli 051 saylı ƏMRİ ilə TƏSDİQ EDİLİB və QÜVVƏYƏ MİNİB.

3. Bu standart ГОСТ Р 51294.3-99 Azərbaycan dilinə autentik tərcüməsidir.

4. İlk dəfə TƏDBİQ EDİLİR.

5. İlk yoxlama müddəti 2010-cu il, dövrü yoxlama 5 ildir.

Bu standart Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin icazəsi olmadan tam və ya hissə-hissə yenidən çap oluna, çoxaldıla və yayıla bilməz.

**Mündəricat**

1. Tətbiq sahəsi……………………………….………………...………………1
2. Normativ istinadlar…………………………………………………….……..2
3. Terminlər və tariflər………………….……………………..…………..……...2
4. Terminlərin azərbaycan dilində əlifba üzrə göstəricisi ………………………..20
Əlavə A Standart mətninin anlayışı üçün lazım olan ümümtexniki anlayışların terminləri və tərifləri ………………………………………………….…..23

# G İ R İ Ş

Standartda qəbul olunmuş terminlər sistemləşdirilmiş qaydada yerləşdirilmişdir və ştrixli kodlaşdırma sahəsindəki anlayışlar sistemini əks etdirir.

Hər bir anlayış üçün bir standarlaşdırılmış termin müəyyən edilmişdir. Terminin dairəvi mötərizəyə alınmış hissəsi standartlaşdırma sənədlərində termindən istifadə edərkən yazılmayada bilər.

Terminoloji məqalədə kvadrat mötərizələrin mövcudluğu onun daxilində ümumi termin elementləri olan iki terminin olduğunu göstərir.

Əlifba göstəricilərində verilmiş terminlər məqalənin nömrəsi göstərilməklə ayrıca verilmişdir.

Çoxişarəli terminin tətbiq sahəsini göstərən qeyd, termindən sonra açıq rəngli şriftlə dairəvi mötərizədə verilmişdir. Qeyd terminin hissəsi sayılmır.

Lazım olduqda, verilmiş təriflərə törəmə əlamətlər əlavə etməklə, orada istifadə olunan terminlərin mənasını açmaqla, tərifi verilən anlayışın həcminə daxil olan obyektləri göstərməklə, onları dəyişmək olar. Dəyişikliklər verilmiş standartda müəyyən olunmuş anlayışların həcmini və məzmununu pozmamalıdır.

Terminin tərkibində anlayışın bütün lazımi və kifayət qədər olan əlamətləri mövcud olduqda, tərif verilmir və onun yerinə xətt qoyulur.

Standartın mətnini başa düşmək üçün lazım olan terminlər və ümumtexniki anlayışların tərifləri A əlavəsində verilmişdir.

Standartlaşdırılmış terminlər yarım qalın, onların abbreviatura ilə təqdim olunmuş qısa formaları açıq şrift ilə, sinonimlər isə kursiv ilə yığılır.

**Avtomatik identifikasiya**
**ŞTRİXLİ KODLAŞDIRMA**
**Terminlər və təriflər**

AZS 214 - 2006

**Автоматическая идентификация**
**ШТРИХОВОЕ КОДИРОВАНИЕ**
**Термины и определения**

**ГОСТ Р 51294.3-99**

**Automatic identification.**
**BAR CODING**
**Terms and definitions**

Tətbiq edilmə tarixi «20» 04 2006-ci il

## 1. TƏTBİQ SAHƏSİ

Bu standart ştrixli kodlaşdırma sahəsinin terminlərini və anlayışlarının təriflərini müəyyən edir.

Bu standart ilə müəyyən olunmuş terminlər ştrixli kodlaşdırma üzrə standartlaşdırma işlərinin sahəsinə daxil olan və/vəyaxud bu işlərin nəticələrini istifadə edən bütün növ sənədlərdə və ədəbiyyatda istifadə üçün vacibdir.

Bu standart ГОСТ 15971, ГОСТ 15093, ГОСТ 15133, ГОСТ 25532, ГОСТ 7601 ilə birlikdə tətbiq olunmalıdır.

Rəsmi nəşr